*Son vaxtlar respublikamızın əsrarəngiz gözəlliyi ilə seçilən bu bölgəsində aparılan çoxsaylı quruculuq və abadlıq işləri heç kəsin diqqətindən yayınmır. Yeni təyinata qədər özünün ağır günlərini yaşayan Lənkəran Zeynal Nağdəliyevin rəhbərliyi altında uğurlu addımlarını atır, dirçəlir və inkişaf edir.*

*Fərəh doğuran odur ki, bu qayğı mədəniyyətimizdən də yan ötmür. Əksinə, onun bəhrəsini daha çox məhz mədəni-maarif müəssisələrimiz görür. Buna əyani sübut kimi yanvarın 28-də burada həyata keçirilən tədbiri də göstərmək olar.*



Lənkəran

# Mədəniyyət bayramı

## Əsaslı təmir və bərpadan sonra dram teatrı qapılarını yenidən tamaşaçıların üzünə açdı.

Həmin gün əsaslı təmir və bərpadan sonra N.B.Vəzirov adına Lənkəran Dövlət Dram teatrı yeni mövsümünü açırdı. Bu münasibətlə təşkil olunmuş tədbirə çoxsaylı qonaqlar, millət vəkilləri, adlı-sanlı sənətçilər, Lənkəranın sabiq rəhbərləri və mətbuat işçiləri qoşulmuşdu.

Təntənəli mərasimdə ilk söz Mədəniyyət naziri Polad Bülbüloğluya verildi. O, teatra toplaşmış bütün tamaşaçıları və qonaqları salamladı: "Vaxtilə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyev mənə deyəndə ki, Dram Teatrını əsaslı surətdə təmir edəcək, onu cənub zonasının fəal yaradıcılıq mərkəzinə çevirəcəyik, sözün düzü, deyilənlərə o qədər də inanmadım. Niyə, məni narahat edən nəydi? Əvvəla, teatrı, teatr binasını təmir etmək o qədər də asan məsələ deyil. Səhnəni istənilən səviyyəyə gətirmək, pərdələr, işıq məsələləri - teatr həyatına yaxşı bələd olanlar bütün bunların nə qədər çətin və incə mətləblər olduğunu yaxşı bilirlər...

Lənkəran Dövlət Dram teatrının indiki görkəmə, belə yaraşıqlı libasa düşməsinə əslən lənkəranlı olan iş adamlarının, yaxın-uzaq ölkələrdə yaşayan cənubluların əməyini xüsusi qeyd etmək istəyirəm və onlara çoxsaylı teatrsevərlər adından "sağ ol!" deyirəm. Düşünürəm ki, bundan sonra paytaxt teatrları Lənkərana tez-tez gələcək və ən yaxşı tamaşalarını da məhz burada göstərəcəklər".

Mövsümün açılışını ifadə edən qırmızı lent kəsildikdən sonra söz Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə verildi. O, iş adamı Mübariz Mənsimova "Dəmirağacı" mükafatı təqdim etdi.

Salon ölməz Bülbülün ifasında "Ölkəm" romansının melodiyalarına qərq oldu.

Teatrın baş rejissoru, əməkdar incəsənət xadimi Baba Rzayev təntənəli mərasimə toplaşanlara N.B.Vəzirov adına Lənkəran Dövlət Dram teatrının keçdiyi yaradıcılıq yolundan söhbət açdı. Natiq vurğuladı ki, yarandığı gündən (32 il bundan əvvəl) bu sənət ocağında 170-ə yaxın əsər tamaşaya qoyulub. Teatr neçə-neçə nəslin estetik zövqünün formalaşmasında fəal rol oynayıb, insanlara xoş ovqat bəxş edib.

Təbrik üçün söz Teatr Xadimləri İttifaqının sədri Azərpaşa Nemətova verildi.

Respublikanın xalq artisti Cənəli Əkbərov, əməkdar artistlərdən Möhlət Müslümov, Fəxrəddin Dadaşovdan ibarət muğam üçlüyünün, Lənkəran bölgəsinin yetirməsi Cavid Rəcəbovun, Türkiyədən qonaq sifətiylə gəlmiş məşhur sənətçi Mahsun Qırmızıgülün ifaları alqışlarla qarşılandı.

Respublikanın xalq artistləri Yaşar Nuri və Firəngiz Mütəllibovanın çıxışları tamaşaçıların rəğbətini qazandı.

Sonra səhnə xalq artistləri Əminə Yusifqızının, Yalçın Rzazadənin, Gənc Tamaşaçılar teatrının aktyorları Ağaxan Salmanovun, Yasin Qarayevin, Füzuli Məmmədovun, xalq artisti İlham Namiq Kamalın, Pantomim və N.B.Vəzirov adına Lənkəran Dövlət Dram teatrlarının aktyorlarının ixtiyarına verildi.

Bu bölgənin insanlarının xasiyyətlərini, vərdiş və şirin danışıq tərzlərini - bir sözlə, obrazlarını özünəxas məharət və istedadla yaradan, respublikanın xalq artisti Afaq Bəşirqızının səhnədə görünməsi tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılandı.

Sonda qonaqların və sənətçilərin şərəfinə ziyafət verildi.

*...Lənkəran növbəti dəfə özünün tarixi gününü yaşadı. Bunun mədəniyyətimizlə bağlı olması bizi daha çox sevindirir. İnanırıq ki, iş adamlarını cəlb etməklə belə möhtəşəm addım atmaq ənənəsi başqa bölgələrə də keçəcək və bununla bağlı həmin rayonların da qonağı olacağıq...*

**Tural**